**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİ RLİ Yİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**BAKALAVR PİLLƏSİ ÜÇÜN**

**İXTİSAS -050115 - "COĞRAFİYA MÜƏLLİMLİYİ"**

# FƏNN – İPF-B18 "DÜNYANIN İQTİSADİ VƏ SOSİAL COĞRAFİYASI (İPF-B18.2 - DÜNYA TƏSƏRRÜFATININ COĞRAFİYASI)"

**(III kurs)**

**Bakı – 2016**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**BAKALAVR PİLLƏSİ ÜÇÜN**

**İXTİSAS -050115 - "COĞRAFİYA MÜƏLLİMLİYİ"**

# FƏNN – İPF-B18 "DÜNYANIN İQTİSADİ VƏ SOSİAL COĞRAFİYASI (İPF-B18.2 - DÜNYA TƏSƏRRÜFATININ COĞRAFİYASI)"

**(III kurs)**

**Azərbaycan Respublikası Təhsil Nazirinin 00.00.2016-cı il tarixli 00 saylı əmri ilə fənn proqramı kimi təsdiq edilmişdir.**

**Bakı-2016**

**Tərtib edənlər:** Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, c.e.n., dos.**Soltanova H.B**. və c.e.n. dos.**Əhmədova İ.İ.**

**Elmi redaktor:** c.e.n., dos.**Soltanova H.B**

**Rəy verənlər:**

**1**.BDU-nun "İqtisadi və sosial coğrafiya" kafedrasının müdiri,
c.e.d. prof **Həsənov T.G**.

2. AMEA Coğrafiya İnstitutunun "Azərbaycanın iqtisadi və siyasi coğrafiya" şöbəsinin müdiri, c.e.n. dos. **Paşayev N.A.**

## DÜNYANIN İQTİSADİ VƏ SOSİAL COĞRAFİYASI (DÜNYA TƏSƏRRÜFATININ COĞRAFİYASI)

### İzahat vərəqi

Qloballaşma dövründə dünya təsərrüfatnın öyrənilməsi şəxsiyyətin hərtərəfli inkişafının formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Tədris prosesində "Dünyanın iqtisadi və sosial coğrafiyası (Dünya təsərrüfatı)" fənninin öyrədilməsi zəruri sayılır. Bu fənn "Coğrafiya müəllimliyi" ixtisası alan tələbələrə III kursda 60 saat (30 s. müh., 30 s. məş.) həcmində tədris edilir.

Fənnin tədrisində **məqsəd:**

- vahid sistem kimi dünya təsərrüfatı haqqında biliyin formalaşması,
- "Coğrafiya müəllimliyi" ixtisası alan tələbələrdə bu sahədə bilik sisteminin formalaşması,
- dünya təsərrüfatı sahələri və onlara ETT-nin təsirinin öyrənilməsi,
- dünya təsərrüfatı sahələrində strukur və ərazi dəyişikliklərinin öyrənilməsi.

Fənnin mənimsənilməsi nəticəsində tələbələr **bilməlidir:**

- dünya təsərrüfatının formalaşması tarıxini,
- dünya təsərrüfatı sahələri və onların ərazi üzrə yerləşmə xüsusiyyətlərini,

- ETT dövründə dünya təsərrüfatı sahələrində struktur dəyişiklikləri,
- dünya təsərrüfatı sahələrinin ətraf mühitə təsirini və s.

**Bacarmalıdır:**

- müasir siyasi və iqtisadi cəbhədə vəziyyəti qiymətləndirməyi,
- milli və dünya miqyasında iqtisadi vəziyyəti və müxtəlif təsərrüfat sahələrinin rolunu təhlil etməyi,
- müasir obyettiv amillərin dünya təsərrüfatına təsirini təhlil etməyi.

**Yiyələnməlidir:**

- dünya təsərrüfatının strukturu, dinamikası və dəyişiklikləri haqqında ümumi biliklərə,
- dünya təsərrüfatının müxtəlif sahələrinin fəaliyyəti haqqında biliklərə,
- dünya təsərrüfatı sahələrinin inkişafına təsir edən amillər haqqında biliklərə və s.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Cəmi | o cümlədən | |
|---|---|---|---|---|
| | | | **müh.** | **məş.** |
| 1 | Fənnin predmeti, məqsəd və vəzifələri | 4 | 2 | 2 |
| 2 | Dünya təsərrüfatının modeli və tipləri. Beynəlxalq əmək bölgüsü | 4 | 2 | 2 |
| 3 | İqtisadiyyatın qloballaşması və transmilli korporasiyaların fəaliyyəti | 4 | 2 | 2 |
| 4 | Beynəlxalq iqtisadi inteqrasiya və dünya təsərrüfatı münasibətləri problemləri. | 4 | 2 | 2 |
| 5 | Açıq iqtisadiyyat və dünyanın azad iqtisadi zonaları (AİZ) | 4 | 2 | 2 |
| 6 | Dünya bazarı və dünya maliyyə bazarı. | 4 | 2 | 2 |
| 7 | Beynəlxalq iqtisadi münasibətlərin formaları | 4 | 2 | 2 |
| 8 | Dünyanın neft, qaz və kimya sənayesi | 4 | 2 | 2 |
| 9 | Dünya metallurgiya və maşınqayırma sənayesi | 4 | 2 | 2 |
| 10 | Dünya energetika və elektroenergetika sənayesi. Qlobal energetika problemi | 4 | 2 | 2 |
| 11 | Dünya yüngül və yeyinti (qida) sənayesi | 4 | 2 | 2 |
| 12 | Dünya kənd təsərrüfatı və ETT | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 13 | Qlobal ərzaq probleminin mahiyyəti və coğrafiyası | 4 | 2 | 2 |
| 14 | Dünya nəqliyyat sistemi və xidmət sahəsi | 4 | 2 | 2 |
| 15 | Ekoloji problem və dünya təsərrüfatı | 4 | 2 | 2 |
| **Cəmi:** | | **60** | **30** | **30** |

## Mövzular və onların məzmunu

**1. Fənnin predmeti, məqsəd və vəzifələri.**

Fənnin məzmunu və məqsədi, təhsil sistemində yeri. Dünya təsərrüfatının iqtisadiyyat, politologiya, beynəlxalq hüquq, sosiologiya və digər elmlərlə əlaqəsi. Dünya təsərrüfatı və milli iqtisadiyyat. Dünya təsərrüfatının nəzəri əsasları: A.Veber, N.D. Kondratev, D.Rikardo, İ.Tyünen, B.Kristaller və A.Leş və başqalarının nəzəriyyələri. **[1],[2],[4].**

**2. Dünya təsərrüfatının modeli və tipləri. Beynəlxalq əmək bölgüsü.**

Dünya təsərrüfatı anlayışı və onun mahiyyəti. Dünya təsərrüfatınən formalaşmasının qısa tarixi və mərhələləri. ETT və müasir dünya təsərrüfatı. Fəaliyyət formaları. Dünya təsərrüfatının modeli. Dünya təsərrüfatının tipləri. Coğrafi əmək bölgüsünün forma və növləri **[9],[17]**..

**3. İqtisadiyyatın qloballaşması və transmilli korporasiyaların fəaliyyəti.**

“Qloballaşma” anlayışının mahiyyəti və onun təzahür formaları. Transmilli korporasiyaların iqtisadi fəaliyyəti və onların milli iqtisadiyyata təsiri. İri Transmilli korporasiyalar (TMK). **[10],[11],[15].**

**4. Beynəlxalq iqtisadi inteqrasiya və dünya təsərrüfatı münasibətləri problemləri**

Beynəlxalq iqtisadi inteqrasiya qloballaşmanın təzahürü kimi. İnteqrasiyanın müasir formaları. Azərbaycan beynəlxalq iqtisadi inteqrasiya sistemində. Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa İttifaqı (Aİ), Azad Ticarət haqqında Şimali Amerika Müqaviləsi (NAFTA), Cənub-Şərqi Asiya ölkələri təşkilatı (ASEAN), Neft ixrac edən ölkələrin təşkilatı (OPEK), Müstəqil Dövlətlər Birliyi (MDB), Asiya-Sakit okean İqtisadi İttifaqı (ASİT), Latın Amerikası İnteqrasiya Assosiasiyası (LAİA) və onların fəaliyyəti **[8], [10], [11]**..

**5. Açıq iqtisadiyyat və dünyanın azad iqtisadi zonaları (AİZ).**

İqtisadiyyatın açıqlığının mütləq və nisbi gğstəriciləri. İqtisadiyyatın açıqlığına təsir edən göstəricilər. “Azad iqtisadi zona” anlayışının mahiyyəti. Azad iqtisadi zonaların balıca əlamətləri. Azad iqtisadi zonaların tipləri **[4],[7], [10], [11].**

**6. Dünya bazarı və dünya maliyyə bazarı.**

"Dünya bazarı" anlayışının mahiyyəti. Dünya bazarının formalaşması. Dünya bazarının tərkib hissələri. Dünya maliyyə bazarı və maliyyə mərkəzləri. Pul bazarı və kapital bazarı. Birbaşa xarıci investisiyalar. **[4],[17].**

**7. Beynəlxalq iqtisadi münasibətlərin formaları.**

Dünya təsərrüfat əlaqələri və dünya təsərrüfatı. Müasir beynəlxalq iqtisadi münasibətlər sisteminin qlobal səviyyəsi. Beynəlxalq iqtisadi münasibətlərin (BİM) formalaşmasına təsir edən amillər. Beynəlxalq iqtisadi münasibətlərin formaları və onların səciyyəsi. Milli iqtisadiyyatın inkişafında beynəlxalq iqtisadi münasibətlərin yeri və rolu **[5], [6], [10].**

**8. Dünyanın neft, qaz və kimya sənayesi.**

Dünyada neft və qaz çıxarılması və bu sahədə dəyişikliklər. OPEK və onun fəaliyyəti. Dünyanın regionlarında neft və qaz çıxarılması. Neft və neft məhsullarının istehlakı, ixracı və idxalı. Maye təbii qazın beynəlxalq ticarəti. Dünya okeanında neft və təbii qaz çıxarılması. Dünyanın mühüm neft şirkətləri və onların fəaliyyət dirəsi.

Kimya sənayesinin strukturu. Kimya məhsulları ıstehsalında coğrafi dəyişikliklər və bunun səbəbləri. Kimya sənayesinin ətraf mühitə təsiri **[1], [2], [9], [10], [18], [21].**

**9. Dünya metallurgiya və maşınqayırma sənayesi.**

Metallurgiya sənayesinin xammal bazası. ETT-nin inkişafı ilə əlaqədar metallurgiya sənayesində ərazi dəyişiklikləri. Məhsul istehsal və istehlak edən başlıca dövlətlər. Qara və əlvan metallurgiya "çirkin" sahə kimi və onun ətraf mühitə təsiri. Maşınqayırma sənayenin başlıca sahəsi kimi. Ümumdünya sənaye istehsalında maşınqayırmanın payı. Maşınqayırma sahələrinin səciyyəsi və yerləşməsinə təsir edən amillər. Beynəlxalq əmək bölgüsü, ixtisaslaşma və kooperativləşmə cəhətdən maşınqayırmanın inkişaf səviyyəsinə görə ölkələrin qruplaşd ırılması. Dünya maşınqayırma mərkəzləri.

ETT dövründə maşınqayırma istehsalının sahə və ərazi strukturunda dəyişikliklər. Maşınqayırmada nanotexnologiyaların rolu **[1], [9], [10], [14],[18].**.

**10. Dünya energetika və elektroenergetika sənayesi. Qlobal energetika problemi.**

Dünya yanacaq və enerji istehsalı və istehlakının coğrafi aspektləri.Şimal və Cənub ölkələri və iri regionların dünya yanacaq və enerji istehsalı və istehlakına görə nisbəti. Yanacaq və enerji ixracatçıları və idxalatçıları olan başlıca dövlətlər.

Dünya elektrik enerjisi istehsalının coğrafiyası və dinamikası. Dünya elektrik enerjisi istehsalının strukturu və regionlar üzrə paylanması. Elektrik enerjisi ticarəti. Alternativ enerji mənbələri **[1], [9], [10], [14],[18].**.

**11. Dünya yüngül və yeyinti (qida) sənayesi.**

Yüngül sənayenin tərkibi və yerləşməsi amilləri. Toxuculuq, tikiş, gön-dəri sənayesinin coğrafiyası. Sahələrin yerləşməsində ərazi dəyişiklikləri.

Yeyinti (qida) sənaye sahələrinin struktur xüsusiyyətləri və yerləşmə amilləri. Yeyinti (qida) sənayesinin tərkibi, səciyyəsi və xüsusiyyətləri. Balıqçılıq, dəniz və okeanların digər biosərvətləri. BMT-nin dəniz hüququ üzrə qəbul etdiyi 1982-ci il Konvensiyasının dünya balıqçılığına təsiri. Akvamədəniyyətin inkişafı **[1], [9],[14],[18]**..

**12. Dünya kənd təsərrüfatı və ETT.**

Kənd təsərrüfatının maddi-texniki bazası. Kənd təsərrüfatının inkişafının təbii-ehtiyat aspektləri. Kənd təsərrüfatının aparılması formaları. Müasir kənd təsərrüfatı istehsalının inkişafının əsas meylləri. Aqrar sənaye kompleksi sistemində kənd təsərrüfatı. İnkişafda olan ölkələrdə "yaşıl inqilab" , onun mahiyyəti, müsbət və mənfi cəhətləri. Kənd təsərrüfatı sahələrinin səciyyəsi: Əkinçiliyin yaranması. Taxıl məhsulları ilə təminat səviyyəsi. Suvarılan torpaqlar. Heyvandarlıq. ETT-nin kənd təsərrüfatına təsiri. Meşə ehtiyatları. Kənd təsərrüfatı və ətraf mühit **[1], [7], [9], [10], [14],[18]**..

**13. Qlobal ərzaq probleminin mahiyyəti və coğrafiyası.**

Qlobal ərzaq probleminin coğrafi aspektləri. Qlobal ərzaq probleminin yaranma səbəbləri. “Aclıq” və “doyunca yeməmək” anlayışlarının mahiyyəti. Qidalanmanın keyfiyyət və kəmiyyət göstəriciləri. İnkişaf etmiş və inkişafda olan ölkələr arasında fərq. Dünya əhalisinin qidalanma tipləri. Aclığın coğrafiyası.Qlobal ərzaq probleminin həlli yolları. Ərzaq təhlükəsizliyi problemi **[2], [9],[14],[18].**.

**14. Dünya nəqliyyat sistemi və xidmət sahəsi**

Nəqliyyat növləri və onların inkişaf səviyyəsi. Dünya nəqliyyat sisteminin mühüm göstəriciləri. ETT dövründə dünya nəqliyyat sistemində baş verən arazi dəyişiklikləri. Nəqliyyat növlərinin mühüm parametrləri. Dünya nəqliyyatında dəyişikliklər və avtomobilləşdirmə. Transmilli neft və qaz kəmərlərı. Dünya okeanının nəqliyyat cəhətdən mənimsənilməsi. Xidmət sahəsi – üçüncü sahə kimi. Xidmət sahələrinin tərkib hissələri. Beynəlxalq turizm dünya təsərrüfat sahəsi kimi. Beynəlxalq turizmin dinamikası və coğrafiyaı. Azərbaycan beynəlxalq turizm sistemində **[1], [3], [5], [7], [9], [10], [18]**.. **[19],**

**15. Ekoloji problem və dünya təsərrüfatı.**

Dünya ölkələrinin ekoloji-iqtisadi tipologiyası. Ekoloji problemlərin arazi təhlili. Gərgin ekoloji vəziyyətə görə fərqlənən rayonlar.Texnogen və təbii fəlakətlərin qlobal ekoloji vəziyyətə

təsiri. Qlobal ekoloji problemlərin həlli yolları. Dünyanın xüsusi mühafizə olunan təbii əraziləri: Milli parklar **[2], [10], [18]**..

**Fərdi işlər üçün mövzular**

1.XIX-XX əsrlərdə sahələr üzrə əhalinin məşğuliyyətində qlobal dəyişikliklər və onların səbəbi.

2.Müasir dövrdə dünya təsərrüfatının modeli və tipləri.

3. Qloballaşma anlayışının mahiyyəti və əsas formaları (TMŞ, beynəlxalq inteqrasiya və s.)

4. Açıq iqtisadiyyat və Azad iqtisadi zonalar.

5.Beynəlxalq iqtisadi əlaqələrin formaları və onların səciyyəsi

6.Natamam dövriyyəli metallurgiyanın xüsusiyyəti və üstünlükləri.

7. Maşınqayırma məhsulları istehsalşıları olan 10 qabaqcıl ölkə və onların ixtisaslaşması.

8.Enerji ehtiyatları istehlakının dinamikası və onların perspektivləri.

9.İnkişaf etmiş və inkişafda olan ölkələrdə kimya sənayesi sahələri tərkibində fərqli xüsusiyyətlər.

10.Dünya nəqliyyat sisteminin inkişafının əsas istiqamətləri.

**Ədəbiyyat:**

**Əsas**

1.Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. Bakı: Sabah. 2011, 530 s.

2.Исмайылов Ч.Н.Игтисади вя сосиал ъоьрафийанын ясаслары. Бакы: "ЪБС", 2010, 328 с.

3.Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Bakı: "R.N. Novruz-94", 2002, 547s

4.Алисов Н.Б., Хореев Б.С. Социально-экономическая география мира (общий обзор). М.: « Гардарики», 2002, 704 с.

5.Александрова А.Ю. Международный туризм. М.: «АСПЕКТ-ПРЕСС», 2001, 470 с.

6.Воскресенский В.Ю. Международный туризм. М.: «ЮНИТИ-ДАНА», 2011, 255 с.

7.Липец Ю.Г., Пуляркин В.А., Шлихтер С.Б. Георафия мирового хозяйства. М.: Владис. 1999, 400 с.

8.Холина В.Н., Наумова А.С., Родионова И.А. Социально-экономическая география мира. М.: « Дрофа», 2009, 72 с.

9. Максаковский В.П. Географическая картина мира. Книга 1, М.: «Дрофа», 2008, 495 с.

10. Максаковский В.П. Географическая картина мира. Книга II, М.: «Дрофа», 2009, 480 с.

11.Погорлецкий А.И. Экономика зарубежных стран. Санкт – Петербург. Издательство Михайлово В.А. 2000, 492 с.
**Дополнительная**
12. Бжезинский З. Выбор: мировое господство или мировое лидерство. М.: 2004, 264 с.
13. Богомолов О.Т. Мировая экономика в век глобализации. М.: «Весь мир», 2007, 359 с.
14.Гладкий Ю.Н., Сухоруков В.Д., Экономическая и политическая география зарубежного мира. М.: «Центр Академии», 2008, 464 с.
15. Гурова И.П. Мировая экономика. М.: «Омега», 2008, 198 с.
16. Родионова И.А. Глобальные проблемы человечества. М.: «Аспент-Пресс» , 1997, 159 с.
17. Родионова И.А., Буланова Т.М. Экономическая география М.: 2000, 385 с
18.Социально-экономическая география зарубежного мира (под ред. В.В Вольского). М.: « Дрофа», 2005, 592 с.
19.Сенин В.С. Организация международного туризма. Учебник. 2003, 400 с.
20. IMF World Economic Outbook Datebase. 2008, 136 p.
21.Оил & Эаз Жоурнал, Россия – ЦДУ ТЭК,2000 №3.
**Интернет resursları**
22. щттр.//www.ворлд – тоуризм.орг – Цмумдцнйа Туризм Тяшкилатынын сайты

23. щттр.//www. минерал.ру – Дцнйанын вя Русийанын минерал ещтийатларыщаггындаМялуматМяркязинин сайты

24. щттр.//www. опек.орг – ТщеОрганизатион оф тще петролеум ЕхпортигЪоунтриес – ОПЕК

25. щттр.//www. прб.орг.- БМТ –нинящалийядаиркомиссийасынын сайты

26. щттр.//субсидйсъопе.орг/енерги/суммарй/структуре/

27. www.worldcoal.org/resources/coal-statistics/

28. http://data.worldbank.org/#widget-source

29.http://www.nationmaster.com/graph/ene_nuc_pow_pro_kwh-energy-nuclear-power-production-kwh

30.http://www.enotes.com/topic/List_of_countries_by_iron_production.